# Bakıda Azərbaycan qadınlarının IV qurultayı keçirilmişdir



İyunun 14-də Bakıda, Heydər Əliyev Sarayında "İnkişaf naminə birlik" devizi altında Azərbaycan qadınlarının IV qurultayı keçirilmişdir.

Qurultayda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Elçin Əfəndiyev, dövlət və hökumət qurumlarının rəsmiləri, ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun, beynəlxalq təşkilatların nümayəndələri, QHT-lərin təmsilçiləri iştirak etmişlər.

Qurultayı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova açmışdır.

Sonra Azərbaycanın dövlət himni səsləndirilmişdir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fatma Abdullazadə Prezident İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxumuşdur **(məktub qəzetin birinci səhifəsində dərc olunur).**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çoxsaylı qadın təşkilatlarının arzu və təklifləri əsasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyasının sədr müavini Mehriban Əliyevanın «Ülviyyət» ictimai mükafatına layiq görüldüyünü vurğulamışdır. Qeyd edilmişdir ki, ülviyyət Mehriban xanım Əliyevanın humanist missiyasının ayrılmaz parçasıdır. Mehriban xanım Əliyeva ölkəmizin gələcəyi üçün böyük sədaqət və tükənməz sevgi ilə çalışır.

Qurultayda «Azərbaycanda qadın siyasəti» filmi nümayiş etdirilmişdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova hesabat məruzəsi ilə çıxış edərək ötən qurultaydan keçən beş ildə ölkəmizin beynəlxalq nüfuzunun artdığını, sosial-iqtisadi inkişafının daha da sürətləndiyini vurğulamışdır. Azərbaycanın artıq mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrildiyini diqqətə çatdıran komitə sədri, qadınlarımızın da reallaşdırılan möhtəşəm layihələrdə fəallıqları ilə seçildiklərini qeyd etmişdir. Ölkəmizdə qadın hüquqlarının müdafiəsində, onların iqtisadi müstəqilliyinin artırılmasında, dövlət siyasətinin həyata keçirilməsində qadınların rolunun gücləndirilməsi üçün mühüm addımlar atılmışdır.

Hicran Hüseynova Azərbaycanda dövlət qadın siyasətinin təməl prinsiplərinin müəyyən edilməsinin və dövlət səviyyəsinə qaldırılmasının ulu öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu demişdir. Ümummilli liderin dəstəyi ilə keçirilən Azərbaycan qadınlarının qurultaylarında ölkəmizin qadın hərəkatı tarixində yeni səhifələr açılmışdır. Məruzəçi ulu öndərin bu sahədəki siyasətinin Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyini bildirmiş, dövlətimizin başçısının müasir dövrdə qadınlarımızın ölkə həyatında rolunu yüksək qiymətləndirdiyini vurğulamışdır.

Məruzəçi Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın, fondun vitse-prezidenti Leyla Əliyevanın çoxşaxəli fəaliyyətləri ilə beynəlxalq aləmdə ölkəmizin və qadınlarımızın nüfuzunu daha da yüksəklərə qaldırdığını qeyd etmişdir.

Azərbaycanda siyasi, ictimai həyatın bütün sahələrində qadınların rolunun və sayının ildən-ilə artdığını qeyd edən məruzəçi demişdir ki, fəaliyyətimizin əsas istiqamətlərindən biri də qadınlarımızın liderlik mövqeyinin yüksəldilməsinə, hakimiyyətdə və idarəetmədə onların iştirakının artırılmasına, cəmiyyətin bərabərhüquqlu üzvü kimi potensiallarını tam reallaşdırmalarına nail olmaqdan ibarətdir. Qəbul olunmuş dövlət proqramları qadınların bütün sahələrdə imkanlarının tam realizə edilməsinə təkan verir və ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında rolunu artırır.

Komitə sədri Azərbaycan hökumətinin erkən nikah və məişət zorakılığı ilə mübarizə istiqamətində tədbirlərindən, ölkəmizdə qadın hüquqlarının müdafiəsindən və gender bərabərliyinin təmin edilməsindən də danışmışdır.

Hesabat məruzəsindən sonra UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının birinci katibi Günay Əfəndiyeva UNESCO-nun baş direktoru xanım İrina Bokovanın qurultay iştirakçılarına təbrik məktubunu oxumuşdur.

Sonra BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin sədri xanım Nikole Amelin Türkiyənin ailə və sosial siyasət naziri xanım Fatma Şahinin videomüraciətləri verilmişdir.

Videomüraciətlərdən sonra BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi Antonius Broek, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin müvəqqəti işlər vəkili Toralf Pilz, BMT-nin Avropa İqtisadi Komissiyasının İcraçı Komitəsinin gender və sosial məsələlər üzrə məsul şəxsi xanım Malinka Koparanova qadınların cəmiyyətdəki rolundan danışmış, qadın hüquqlarının qorunması sahəsində Azərbaycanda mühüm tədbirlərin həyata keçirildiyini vurğulamışlar.

Rusiya Dövlət Dumasının əmək, sosial siyasət və veteranlar üzrə komitəsi sədrinin birinci müavini xanım Alla Kuzmina ölkəmizin, xüsusən də paytaxt Bakının son illərdə sürətlə inkişaf etdiyini bildirmişdir.

Sonra mandat komissiyasının sədri, Göygöl Rayon İcra Hakimiyyəti başçısının müavini komissiyanın hesabatını səsləndirmişdir.

"Qadın fəallığının artırılmasında hüquqi bazanın formalaşması" mövzusunda çıxış edən Milli Məclis Sədrinin müavini Bahar Muradova xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyətinin bütün dövrlərində Azərbaycan qadınlarının təhsilinin, onların ictimai-siyasi fəallığının artırılması məsələlərini diqqət mərkəzində saxladığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Baş nazirinin müavini Təranə Quliyeva "Naxçıvan Muxtar Respublikasında dövlət qadın siyasətinin inkişafı" mövzusunda məruzə ilə çıxış edərək muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərdən danışmışdır.

M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, professor Nərgiz Paşayeva "Gender aspektində ənənəvilik və müasirlik" mövzusunda məruzə etmişdir.

Qurultay iştirakçıları fasilə zamanı Heydər Əliyev Sarayının foyesində təşkil edilmiş sərgi ilə tanış olmuşlar.

Fasilədən sonra respublikamızın bölgələrindən qadınların qurultaya təbriklərini əks etdirən videoçarx nümayiş olunmuş, təbrik teleqramları oxunmuşdur.

Sonra Konstitusiya Məhkəməsi sədrinin müavini Sona Salmanova "Qadınların hüquqlarının müdafiəsinin müasir meyilləri", ombudsman Elmira Süleymanova "İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyinin artırılması", iqtisadi inkişaf nazirinin müavini Sevinc Həsənova "Qadın sahibkarlığının dəstəklənməsində innovativ yanaşmanın tətbiq edilməsi", Milli Məclisin deputatı Flora Qasımova "Qaçqın və məcburi köçkün qadınların cəmiyyətə sosial inteqrasiyası", Yeni Azərbaycan Partiyası Qadınlar Şurasının sədri Nurlana Əliyeva "Siyasi proseslərdə qadınların rolu", Bakı Şəhər Baş Səhiyyə İdarəsinin müdiri Elmira Əliyeva "Qadın sağlamlığının qorunması", APA İnformasiya Agentliyinin baş direktoru Vüsalə Mahirqızı "İnformasiya cəmiyyətinin formalaşmasında qadınların rolu və yeri" mövzularında məruzələr etmişlər.

Çıxışlarda qadınların hüquqlarının müdafiəsinin müasir meyillərindən, qadın sahibkarlığından, siyasi proseslərdə onların rolundan, cəmiyyətin inkişafında qadın QHT-lərin əhəmiyyətindən, ölkədə mədəniyyətin və incəsənətin inkişafında qadınların nailiyyətlərindən və s. bəhs olunmuşdur. Çıxış edənlər 2013-cü ilin prezident seçkilərində İlham Əliyevin namizədliyinin dəstəklənməsinin vacibliyini bildirmişlər.

Sonra qurultay iştirakçıları Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul etmişlər.

Qurultayda beynəlxalq təşkilatlara da müraciət, eləcə də yekun qətnamə qəbul olunmuşdur.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova qurultaya yekun vurmuşdur.

Qurultay bədii proqramla davam etmişdir.

Bununla da Azərbaycan qadınlarının IV qurultayı başa çatmışdır.

İyunun 14-də axşam qurultay iştirakçılarının şərəfinə ziyafət verilmişdir.